BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2013*

# HÜQUQ

**UOT: 321 (091); 34 (091)**

## QƏDİM DÖVRDƏ CİNAYƏTKARLIQLA MÜBARİZƏ, ƏDALƏT MÜHAKİMƏSİNİN VƏ MƏHKƏMƏ PROSESİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**E.Q.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***nebiev.elbay@yandex.com***

*Məqalədə Qədim dövrdə Azərbaycanda, eləcə də digər ölkələrdə ədalət mühakiməsi məsələsinin hakimiyyətin diqqət mərkəzində olmasından, cinayətkarlıqla mübarizədə (onların axtarılıb tapılması yönümündə) icma orqanlarının məhkəmə qismində fəaliyyətindən, zərərçəkmişin bu prosesdə rolundan, o zamankı məhkəmə prosesinin formalarından və bəzi digər məsələlərdən bəhs olunur.*

**Açar sözlər:** ədalət mühakiməsi, cinayətkarlıqla mübarizə, etiraf, çəkişmə prosesi, axtarış prosesi, ellik zəmanət, işgəncə

İnsan cəmiyyətinin bütün inkişaf mərhələlərində ədalət mühakiməsi məsələləri daim hakimiyyətin diqqət mərkəzində olmuşdur. Qədim dövrdə də qanunu və ədaləti əsas götürmək, həqiqəti müəyyən etmək ədalət mühakiməsi orqanları qarşısında əsas vəzifə kimi qoyulmuşdur. Bunu Qədim Misir dövlətinin timsalında görmək olar. Burada "hakim işi qanuna və ədalətə əsasən" həll etməli idi. Sənədlərdə deyilirdi: "Vəzifəni icra etməklə və ədalət mühakiməsini həyata keçirməklə sən müvəffəqiyyətə nail olacaqsan". Vəzirin böyük mirzəsini "həqiqət mirzəsi" adlandırırdılar. İşin qaldırılmasından əsassız imtina edən hakim cəzalandırılırdı.

Oxşar vəziyyəti Qədim Babildə də müşahidə etmək olar. Burada ta qədimdən məhkəmə qərarları insanların şüurunda ədalət haqqında təsəvvürlərlə əlaqələndirilirdi [7, 77]. Təsadüfi deyil ki, Hammurapi Qanunları qərarın dəyişdirilməsini cinayət hesab edir və müvafiq olaraq cəzalandırırdı. Belə ki, hakim çıxardığı qərarı dəyişdirə bilməzdi. Bu qaydanın əksinə hərəkət edən hakim, haqqında yenidən qərar çıxardığı iddianın on iki qat məbləği həcmində

cərimə olunur və həmişəlik məhkəmədə işləmək hüququndan məhrum edilirdi [1, 57]. Ədalət mühakiməsinin təmin olunmasının diqqət mərkəzində olmasını həmin qanunların 1-ci maddəsindən də sezmək olar. Belə ki, bir şəxs başqasını ittiham edərsə və bunu sübut edə bilməzsə, ittiham edən ölüm cəzası ilə cəzalandırılırdı. Yalan şahidlik edənin də cəzası eyni idi (3-cü mad.). İnsafsız ittihamın və yalan şahidliyin cəzalandırırlması bir tərəfdən, həqiqətin üzə çıxarılmasının məhkəmənin əsas vəzifəsi olduğunu göstərir, digər tərəfdən isə günahsız insanları sui-istifadə və özbaşınalıq hallarından qoruyurdu.

Avesta qanunlarında da hakimlərdən ədalətli olmaq tələb olunurdu. Burada hakimlərin o biri dünyada öz qərarlarına görə məsuliyyət daşımaları hallarından danışılır.

Qədim Hindistanda ədalət mühakiməsini şah "brəhmənlər və təcrübəli müşavirlərlə birlikdə həyata keçirən ali hakim idi. Manu Qanunları brəhmənlərdən ibarət "üç nəfər hakimlə əhatə olunan" (VIII, 10), yəni tərkibində üç nəfər hakimlə işlərə birgə baxan məhkəmə haqqında məlumat verir [5, 147]. Məhkəmə funksiyasını müxtəlif vəzifəli şəxslər – nəzarətçilər (adhyakşalar), inzibati ərazi vahidlərinin - əyalətlərin, vilayətlərin və dairələrin başında duran məmurlar yerinə yetirirdilər. Bütün inzibati vahidlərdə işlərə üç məhkəmə məmurundan ibarət tərkibdə kollegiya baxırdı. İcraatında "oğrular üzərində nəzarət" və cinayət işləri olan xüsusi məhkəmələr də fəaliyyət göstərirdi. Xüsusi səyyar məhkəmələr işlərə yerlərdə baxırdılar. İcmalarda isə kasta məhkəmələri fəaliyyət göstərirdi.

Göründüyü kimi, digər Şərq ölkələrində olduğu kimi, Qədim Hindistanda da məhkəmə funksiyaları, əsasən, inzibati idarəçilikdən ayrılmamışdı. İnzibati aparatın məmurları eyni zamanda idarə etdikləri sahələr çərçivəsində hakim funksiyasını yerinə yetirə bilərdilər [3, 77]. Bununla belə Arthaşastra siyasi traktatı yerlərdə "hüquq mühafizə orqanlarının" iki formasının mövcudluğundan xəbər verir və onların vəzifə borclarını göstərir. Onlardan biri pradeştarlar kollegiyası və dharmastxlar məhkəmə kollegiyası idi. Pradeştarlar üç funksiyanı yerinə yetirməli idi: qeyri leqal gəlirlər əldə etməklə "gizli istehsalla" məşğul olan şəxslərin axtarışı və cəzalandırılması (IV, 4), cinayət törətmiş "məmurların" təqibi (IV, 9), adam öldürmə, oğurluq, zorakılıq və s. bu kimi ağır cinayətlərin istintaqının aparılması və cəzalandırılması. Pradeştar casusların xidmətlərindən istifadə edə (IV, 3 (15)*, şübhə əsasında cinayətin törədilməsində təqsirləndirilən şəxsi iş tam araşdırılana qədər saxlaya bilərdi. Burada Maurya imperiyası dövründə, axtarılan və tutulan cinayətkar barədə axtarış məhkəməsi də fəaliyyət göstərmişdir. Bəzi hallarda prosesin gizli keçirilməsinə rast gəlmək olar. Məsələn, Qədim Misirdə Fironun tapşırığı ilə şah arvadının işini gizli aparan əyan Unanın məlumatı bunu təsdiq edir.

Qədim dövrün səciyyəvi cəhətlərindən biri ondan ibarətdir ki, cinayət-

---

* Sitat «История государства и права зарубежных стран. Под ред. Н.А.Крашенинникова» dərsliyindən götürülmüşdür. Bax: səh. 95.

karlıqla mübarizədə cinayətkarların axtarışı, onların tutulub məhkəməyə verilməsi ilə məşğul olan xüsusi orqanların hələ tam formalaşmadığı, ictimai hakimiyyətin və sosial normaların hökm sürdüyü bir şəraitdə bu vəzifə məhkəmənin üzərinə düşürdü. Yerlərdə bu funksiyanı icma orqanları həyata keçirirdi. Hətta dövlət meydana gəldikdən sonra belə bu cür vəziyyətə rast gəlmək olar. Bunu, Qədim Misirin timsalında müşahidə etmək mümkündür. Burada Qədim şahlıq dövründə (m.ə. 2800-2250-ci illər) varlı kəndlilərin nümayəndələrindən ibarət icma şuraları yerlərdə bir sıra məsələlərlə yanaşı, həm də məhkəmə orqanı qismində fəaliyyət göstərmişdir. Manna dövlətində "kiçik inzibati ərazi vahidlərində məhkəmə funksiyaları yaşayış məntəqələrinin hökm sahibləri – "belalilər" tərəfindən yerinə yetirilirdi." Onlar ərazi icmalarına başçılıq edən yaşayış məskənlərinin hakimləri idi. "Bis bəhta" adlandırılan qəbilə və ya tayfa başçıları da icma daxilində məhkəmə fəaliyyəti ilə məşğul olurdu [2, 35]. Midiya dövlətində də kənd icmalarının və yaşayış məskənlərinin hakimləri - belalilər yerli məhkəmə funksiyasını həyata keçirirdilər.

Qədim Babil dövlətində icma idarəetmə orqanı olan icma şurasına şah tərəfindən təyin olunan rabianum başçılıq edirdi. İcma şurasının müxtəlif vəzifələri sırasında məhkəmə-polis funksiyasına, o cümlədən ictimai asayişin təmin olunması funksiyasına rast gəlmək olar. Rabianumlar məhkəmə kollegiyalarında sədrlik edir, icma ilə bağlı işlərə baxır, cinayətkarların axtarışını, həbsini həyata keçirir və tərəflərin məhkəməyə çağırılmasını təmin edirdilər. Şah hakimiyyəti gücləndikcə icmaların bu səlahiyyətləri getdikcə məhdudlaşdırılır.

Qədim Babildə maraqlı cəhətlərdən biri odur ki, hər bir məhkəmədə hakimin köməkçiləri fəaliyyət göstərirdi. Hakimlər kimi, onlar da bəzi nəzarət funksiyalarına malik idi. Hakimin köməkçisi qismində "hakimin əsgəri" vəzifəsinə rast gəlmək olar. "Hakimin əsgəri" onun polis xarakterli tapşırıqlarını yerinə yetirirdi. Şah hakimiyyəti gücləndikcə icmaların bu səlahiyyətləri getdikcə məhdudlaşdırılırdı.

Atropatena dövlətində də hakimlərin köməkçilərinə rast gəlinir. Sonunculara həvalə olunmuş ərazidə onlar məhkəmə funksiyasını həyata keçirir, ərazinin daxili təhlükəsizliyi və qaydanın təmin olunması ilə məşğul olurdular. Yerli məhkəmələrin fəaliyyətinə hökmdarın başçılıq etdiyi yüksək məhkəmə nəzarət edirdi.

Göründüyü kimi, ibtidai cəmiyyətdə təşəkkül tapmış bu qayda sinifli cəmiyyətə transformasiya olunmuş və ilk dövlətlərin hüquqi sənədlərində öz ifadəsini tapmışdır. Ümumiyyətlə uzun müddət qəbilə yığıncağı ona aid olan ərazidə müxtəlif xarakterli işlərə, şikayətlərə baxırdı. Bunu, insan cəmiyyətinin bu inkişaf mərhələsində fərdi və ümumi mənafelərin əksər hallarda hələ üst-üstə düşməsi ilə izah etmək olar.

O zamanki icma orqanları cinayət törətmiş şəxsləri məhkum etməklə yanaşı, həm də onların axtarışını təşkil etmək vəzifəsini öz üzərlərinə götürmüşlər. Bunun üçün icma müvafiq tədbirlər görməklə əslində ictimai

asayişin mühafizəsində mühüm rol oynayırdılar. Lakin bu vəzifə müəyyən mənada həm də zərərçəkmişin üzərinə düşürdü.. Belə ki, Qədim Şərqdə olduğu kimi, Qədim Roma dövləti meydana gələnə qədər uzun müddət burada sözün geniş mənasında məhkəmə funksiyası zərərçəkmişə məxsus olmuşdur ki, bu da müəyyən qədər özbaşınalıq üçün yol açırdı. Lakin Qədim Roma dövləti meydana gəldiyi zamanlarda vəziyyət tədricən dəyişməyə doğru gedir. Bununla belə Roma dövləti əleyhinə olan cinayətlər istisna olmaqla (bu kateqoriya işlərlə rex (şah) məşğul idi) ayrı-ayrı şəxslər əleyhinə olan cinayətlər, hələ xeyli müddət əvvəlki qaydada, zərərçəkmişin təşəbbüsü ilə təqib olunurdu. Bu qaydaya hətta miladdan sonrakı dövrdə də rast gəlmək olar. Belə ki, II əsrdə əşya şahidlərin iştirakı ilə mülkiyyətçi tərəfindən oğruda tapıldıqdan sonra bu cinayət sübut olunmuş sayılırdı (Qayın İnstitusiyaları 3, 186, 192)[*]. Oğru zərərçəkmişin ixtiyarına verilirdi və o, oğru ilə borcu ödəyə bilməyən şəxs kimi davrana bilərdi. Müəyyən edilmiş formada aparılan axtarış nəticəsində oğurlanmış əşyanın aşkar edilməsinə görə də oğru belə məsuliyyət daşıyırdı [3, 206]. Göründüyü kimi, oğurluğun araşdırılması şəxsi iş idi.

Çəkişmə formasında keçən bu məhkəmə prosesində məsələlərə aydınlıq gətirilir, cinayət törətmiş şəxsin təqsiri müəyyən olunur və ona cəza verilirdi. Tarixən məhkəmə prosesinin çəkişmə (ittihamedici) forması onun ən qədim forması hesab edilir. Sözün dəqiq mənasında çəkişmənin məğzi müxtəlif subyektlər arasında ittiham, müdafiə və işin həlli funksiyalarının bölünməsindən, təqsirləndirilən şəxsə müdafiə olunmaq hüquqlarını təmin etmək üçün geniş imkanlar yaratmaqla ittiham və müdafiə tərəflərinə bərabər prosessual hüquqlar verilməsindən ibarətdir. Qədim dövrdə, xüsusən də Şərqdə göstərilən institutların hələ kifayət qədər inkişaf etmədiyi şəraitdə çəkişmə prosesi primitiv forma almışdır. Prosesin bu formasında cinayət təqibi, bir qayda olaraq, ittihamçıdan – cinayətdən zərər çəkmiş şəxsdən asılı idi. Məhkəmə yalnız ittihamçının xahişi və ya tələbi olduqda işi araşdırırdı. Məhkəmə ittiham və müdafiə tərəflərinin topladığı və təqdim etdiyi sübutlar əsasında işə baxırdı. Təqsirləndirilən şəxsin məhkəməyə çağırılması ittihamçının özü tərəfindən baş verirdi. Bəzən proses ibtidai istintaq keçirilmədən birbaşa məhkəmədə aparılırdı.

Prosesin bu forması qədim dünya dövlətləri (həm Qədim Şərq, həm də Antik ölkələr) üçün səciyyəvi olmuşdur. Bu proses çərçivəsində zərərçəkmiş və ya onun qohumları hakimə müraciət edir, öz şikayətini bildirirdi. Hər iki tərəf – ittihamçı və zərərçəkmiş fəallıq göstərməli, sonuncu isə ittiham etdiyi şəxsi və ya şəxsləri, şahidləri axtarıb tapmalı, digər sübutlar toplamalı, qarşı tərəf isə əksinə, ona bəraət qazandıran və ya onu müdafiə edən sübutları, şahidləri məhkəməyə təqdim etməli idi. Məhkəmə isə buna öz münasibətini bildirir və müvafiq qərar qəbul edirdi. Bu da belə qənaətə gəlməyə əsas verir ki, sübutları

---

[*] Sitat "Всеобщая история государства и права. Под ред. В.А.Томсинова» dərsliyindən götürülmüşdür. Bax: s. 239.

toplayıb məhkəməyə təqdim edən şəxsin üzərinə, həm də onları axtarıb tapmaq, o cümlədən axtarış tədbirlərini həyata keçirmək vəzifəsi də qoyulurdu.

Proses zamanı onun iştirakçıları öz mülahizələrini irəli sürür və sanki hakim qarşısında çəkişirdilər. Bu baxımdan zərərçəkmişin ittihamı dəstəkləməsi (Qədim Misirdə olduğu kimi), faktiki olaraq ittihamçı qismində çıxış etməsi təsadüfi deyildi [4,30]. Belə ki, Qədim Misirdə "zərər çəkən öz şikayət ərizəsində təqsirləndirilən şəxsə veriləcək cəzanın növünü yaxud alınmalı olan cərimənin həcmini göstərməli idi. Buna baxmayaraq, hansı cəzanın verilməsi hakimdən asılı idi" [1, 35].

Bununla belə məhkəmənin fəaliyyətini də tam passiv hesab etmək düzgün olmazdı. Məsələn, Qədim hüquq abidələrindən biri olan Avestaya görə məhkəmə prosesinin çəkişmə forması göstərilməsinə rəğmən məhkəmə iş üzrə qərar çıxarmazdan əvvəl təqsirin olub-olmamasını, onun formalarını (qəsd və ya ehtiyatsızlıqdan törədilməsini), affekt vəziyyətinin olub-olmamasını, ilk dəfə və ya təkrarən törədilməsini, təqsirləndirilən şəxsin dini mənsubiyyətini və s. halları araşdırırdı. İş üzrə toplanılmış sübutlara əsasən göstərilən hallar müəyyənləşdirilir və onlara hüquqi qiymət verilirdi. Araşdırma zamanı şahid ifadələrinə xüsusi diqqət verilirdi. Təsadüfi deyil ki, yalan şahidlik burada ciddi cəzalandırılırdı.

Qədim Hindistanda da yalan şahidlik ağır cinayət və günah sayılırdı. Diqqəti çəkən mühüm məqam ondadır ki, Manu Qanunlarına görə "zorakılığa, oğurluğa, zinaya, söz və ya hərəkətlə təhqirə" (VIII, 72) aid işlər üzrə şahidlərin (hakim tərəfindən) yoxlanılması tələb olunmurdu [5, 153]. Qanunverici bu müddəa ilə, bir tərəfdən, sadalanan cinayətlərin yüksək ictimai təhlükə kəsb etdiyini bildirir, digər tərəfdən, həqiqəti üzə çıxarmaq üçün hakimə göstərilən işlər üzrə yoxlama səlahiyyətləri çərçivəsində əməliyyat-axtarış sferasına aid müvafiq tədbirlər həyata keçirmək imkanı verirdi. Burada hakim polisə başçılıq edən potelin, cinayətlər və xətalar haqqında məlumatlar toplayan talyorun köməyindən də faydalana bilərdi. Bundan əlavə, burada Maurya imperiyası dövründə (m.ə. IV-II əsrlər) çəkişmə prosesi ilə yanaşı axtarış (inkvizisiya) prosesinin əlamətlərinin olduğunu göstərən digər cəhəti də qeyd etmək olar. Belə ki, imperator və məmurlar təhlükəli cinayətkarların axtarıb tapılması və məhkəməyə verilməsi barədə müvafiq əmrlər verə bilərdi. Mühüm tarixi sənəd olan m.ə. IV əsr Arthaşastrada bu məqsədlər üçün gizli məlumat verənlərdən istifadə olunması tövsiyə olunurdu. Ancaq həqiqəti tam üzə çıxarmaq mümkün olmadıqda bir sınaq olaraq "allah məhkəməsindən" istifadə halları da məlum idi.

Qədim Çində də məhkəmə prosesinin axtarış formasının əlamətlərinə rast gəlmək olar. Burada qaçmış qulların axtarılması haqqında XI əsrdə Ven vanın sərəncamı bu hal üçün səciyyəvidir. Axtarış forması getdikcə daha çox tətbiq olunub dövlət tərəfindən istifadə edilirdi. Təsadüfi deyildir ki, Li Kuyun Fatszinində ("Qanunlar kitabı") həbs və axtarış haqqında qanunlar müstəqil fəsillərə ayrılmışdır [3, 110-111].

İttihamedici proses m.ə. VI, V əsr Yunanıstan, m.ə. II əsr Respublika dövrünün Roması, XI-XII əsr Kiyev Rus dövləti üçün də səciyyəvi olmuşdur. Bu tip proses Moskva knyazlığında XV-XVII əsrlərə qədər mövcud olmuşdur [8, 1].

Bəzi Qədim Şərq ölkələrindən fərqli olaraq Qədim Afinada ibtidai istintaqın keçirilməsinə rast gəlmək olar. Şikayəti qəbul etmiş vəzifəli şəxs (məsələn, arxontlar) ibtidai istintaqa (buna "anakrizis" deyilirdi) başlayırdı. "Şikayət ərizəsi verilən vəzifə sahibinin özü də iş barəsində təhqiqat apara bilərdi" [1, 139]. Təqsirləndirilən şəxs ittihamçının məlumatına etiraz olaraq öz yazılı etirazlarını (paraqraphe) bildirə bilərdi. O zaman bu məsələ araşdırılırdı. Paraqraphe (etiraz) daxil olmadıqda isə hakim işin istintaqına başlayırdı. Tərəflər iş üzrə sübutlar (sənədlər, şahid ifadələri və s.) təqdim etməli idi. Qullar da şahid qismində çıxış edə bilərdi. Lakin sonuncular tərəflərin iştirakı ilə işgəncə altında dindirilirdi. Qadınlar və yetkinlik yaşa çatmayanlar şahid qismində çıxış edə bilməzdi [4, 174]. Göründüyü kimi, Afinada da məhkəmə prosesi çəkişmə xarakteri daşımışdır.

Hələ sinifli cəmiyyət və dövlət formalaşan zamanlarda ibtidai cəmiyyətdən miras qalmış adətlərdən biri ellik zəmanətin, yəni kollektiv məsuliyyətin uzun müddət mövcud olmasıdır. M.ə. XVIII əsrdə Qədim Babildə bu instituta rast gəlmək olar. Belə ki, ayrı-ayrı hallarda icma onun ərazisində baş vermiş cinayətlərə görə kollektiv məsuliyyət daşıyırdı [6, 54]. Məs. Hammurapi Qanunlarının 23-cü maddəsinə görə qarətçi hadisə yerində yaxalanmadıqda qarət olunmuş şəxs allah qarşısında and içməklə oğurlanmış əşyaları bildirməli, yer üzündə isə və qarət baş verdiyi ərazidə icma və rabuanum (icma başçısı) oğurlanmış əşyaların dəyərini ödəməlidir [9, 14]. Qanunvericinin bu müddəası, həm də cinayətkarın yaxalanması, onun ələ keçirilməsi üçün zəruri tədbirlərin görülməsinin vacibliyini bildirir.

Kollektiv məsuliyyət hallarına Qədim Çin dövlətində də rast gəlmək olar. M.ə. IV əsrdə bərqərar olmuş Sin dövlətində dövlətin mərkəzləşməsinə xidmət edən Sin padşahının vəziri Şan Yan-faszinin keçirdiyi inzibati və hərbi islahat çərçivəsində ən kiçik inzibati vahid ümumi zaminlik prinsipinə əsaslanan 5-10 ailənin birləşməsindən yaradılan onluq və beşlik sistemi idi. Ellik zəmanətə görə bir nəfərin hərəkəti üçün bütün onluq yaxud beşliyin bütün üzvləri cavabdehlik daşıyırdılar. Əgər həmin vahidlərdən birinə daxil olan əkinçilərdən bir nəfəri cinayət törədərdisə o zaman həmin beşlik yaxud onluq üzvlərinin hamısı onunla birlikdə dövlət quluna çevrilirdilər [1, 83]. Təsadüfi deyil ki, Qədim Çin dövlətində icma administrasiyası təmsilçilərinin bir sıra vəzifələri sırasında kəndin mühafizəsinin təmin olunması göstərilir.

Göründüyü kimi, ellik zəmanət institutu icmanı onun ərazisində baş vermiş cinayətlərə biganə qalmamağa, üzvlərini fəallıq göstərib onları törədənləri tapıb üzə çıxarmağa sövq edirdi. Bu da icmanın bu istiqamətdə müvafiq vəzifələrini müəyyən edir, onu lazımi tədbirlər görməyə vadar edirdi. Əks təqdirdə icma özü, onun hər bir üzvü məsuliyyət daşıyırdı.

Bütün tarixi dövrlərdə etiraf mühüm sübut növlərindən biri olmuşdur. Bu sübut növünə qədim dünya dövlətlərində də rast gəlinir. Etiraf heç bir təzyiq olmadıqda, könüllü və səmimi olduqda işin araşdırılmasına xeyli köməklik edə bilər. Etiraf törədilmiş cinayətlərlə bağlı mühüm məsələlərə, qaranlıq qalan məqamlara aydınlıq gətirir, işin araşdırılmasını sürətləndirir, cinayətin digər iştirakçılarının üzə çıxarılmasına kömək edir, bəzi hallarda isə baş verə biləcək digər cinayətlərin vaxtında qarşısının alınmasında mühüm rol oynayır. Bu baxımdan işin araşdırılması, istintaqı ilə məşğul olan məmurlar cinayət törətmiş şəxsin etirafına nəinki müsbət baxır, hətta bu yönümdə xüsusi səylər göstərirdilər. Bu cür hallar qədim dövrdə geniş yayılmışdır. X.İsmayılovun qeyd etdiyi kimi, "Müqəssir bilinən şəxs həbs edildikdən sonra, məhkəmə onun öz təqsirini tam etiraf etməsinə nail olmağa çalışırdı." Etiraf təqsirin sübut edilməsinin mühüm halı hesab edilirdi. Bununla belə, məhkəmə etirafın həqiqiliyini də yoxlayırdı [2, 36]. Bu da məhkəmənin əməliyyat-axtarış sferasına aid səlahiyyətlərə malik olduğunu göstərir.

Qədim dövrdə etiraf əldə etmək üçün məmurlar fiziki təzyiq üsullarından geniş istifadə edirdilər. Bu, işgəncə idi. Etiraf əldə etmək üçün tətbiq olunan işgəncə, bir tərəfdən, həqiqəti müəyyən etmək üçün lazım olurdu, digər tərəfdən isə, məmurların acizliyindən, bacarıqsızlığından, qanuni üsullarla işi hərtərəfli araşdırmaq iqtidarında olmamasından, zəruri sübutları axtarıb tapmağa cəhd etməməsindən irəli gəlirdi ki, bu da məmurların (hakimlərin) bu istiqamətdə fəaliyyətini xeyli asanlaşdırırdı. Bundan əlavə, işgəncə hallarının geniş yayılmasına ciddi təsir göstərən amillərdən biri odur ki, məhkəmə araşdırılması, bir qayda olaraq, bir şəxs tərəfindən həyata keçirilirdi. Bu da özbaşınalıq və sui-istifadə hallarının geniş vüsət almasına gətirib çıxarırdı. İttiham və məhkəmə funksiyasının bir şəxsin əlində cəmləşməsi ona gətirib çıxardı ki, şəxsi məsuliyyətə cəlb edən məmur, həm də onun təqsirli bilinib məhkum olunmasında maraqlı idi. Təqsirlilik prezumpsiyası prinsipinin mövcudluğu da bu məsələyə böyük təsir göstərmişdir. Təsadüfi deyil ki, baxılan dövrdə məmurlara verilmiş bu imkandan (işgəncədən istifadədən) sui-istifadə halları da az deyildi. İşgəncə vasitəsi ilə məmurlar istədikləri ifadəni (etirafı) əldə etməklə araşdırmanı, istintaqı özləri üçün sərfəli olan məcraya yönəldə bilirdilər. Bəzən şahidlərə də işgəncənin tətbiq olunması hallarına (məsələn, Qədim Çində) rast gəlinir.

İşgəncə tətbiq etməklə təqsirləndirilən şəxsin dindirilməsinə Qədim Misirdə, Qədim Hindistanda və başqa ölkələrdə rast gəlmək olar. Lakin hər bir ölkədə işgəncə halları özünəməxsus forma almışdır. Məsələn, m.ə. IV əsr Arthaşastraya əsasən Qədim Hindistanda təqsirləndirilən şəxslərə, bir qayda olaraq, dörd növ işgəncə tətbiq olunurdu: 6 çubuq zərbəsi, 7 şallaq, 2 sallatma və burnuna su tökmə. Xüsusi təhlükəli cinayətkarlar səkkiz növ işgəncəyə, o cümlədən iynə ilə əlləri deşmə, barmaq oynaqlarını yandırma və s. məruz qalırdı. Ancaq müəyyən kateqoriya şəxslər işgəncədən azad idi. Binlar uşaqlar, ruhi xəstələr, sərxoşlar, aclıq və susuzluqdan əziyyət çəkənlər, ahıllar, xəstələr,

hamilə qadınlar, etiraf etmiş şəxslər, az əhəmiyyətli cinayətlərdə ittiham olunan şəxslər, habelə cinayətin ağırlığından asılı olmayaraq brəhmənlər idi [6, 78; 7, 160]. Ayrı-seçkilik açıq aşkar özünü göstərirdi. Qədim Çində ibtidai istintaq və məhkəmə araşdırılması bir şəxsin əlində cəmləşmişdi. Bu da özbaşınalıq üçün əlverişli şərait yaradırdı. Təqsirlənidirilən şəxsi məsuliyyətə cəlb edən hakim onun məhkum olunub cəzalandırılmasında maraqlı idi. Təqsirləndirilən şəxs cinayəti etiraf etmədikdə ona fiziki təzyiq göstərilməsi adi hal idi. Şahidlərdən də lazım olan ifadəni almaq üçün işgəncə tətbiq oluna bilərdi.

Qədim Afinada isə qullar, bir qayda olaraq, işgəncə altında dindirilirdi. Tərəflərin də iştirak etdiyi bu proses zamanı şahid qullar saçından asılır, şallaqlanır, burun deşiklərinə turşu tökülür və s. Qulların işgəncə altında dindirilməsinə Qədim Romada Respublika dövründə də rast gəlmək olar. İmperiya dövründə isə yüksək silkin nümayəndələri və əsgərlər istisna olmaqla işgəncə həm də azad adamlara tətbiq olunurdu.

Yekunlaşdırarkən qeyd etmək lazımdır ki, Qədim dövrdə bir sıra dövlətlərin timsalında məhkəmələrin ədaləti rəhbər tutmasının zəruriliyi önə çəkilirdi. Cinayət törətmiş şəxslərin, sübutların axtarıb tapılması zərər çəkmişin və ya onun qohumlarının üzərinə qoyulurdu. Bu mənada maraqlı şəxslər əslində müəyyən mənada məhkəmə funksiyasını yerinə yetirirdilər. Ancaq bu məsələdə yerli məhkəmə orqanı qismində çıxış edən icma da kənarda qalmırdı. Sinifli cəmiyyət irəliyə doğru inkişaf etdikcə cinayətkarlıqla mübarizə sahəsində ixtisaslaşmaqda olan müəyyən dövlət orqanlarının bu prosesdə rolu artırdı.

Qədim dövrdə məhkəmə prosesi əsasən ittihamedici (çəkişmə) xarakteri daşıyırdı. Cinayət təqibi zərər çəkmiş şəxsin məlumatı, şikayəti əsasında başlayırdı. İcma üzvlərinin və bütövlükdə icmanın maraqları üst-üstə düşdüyündən onlardan birinə qarşı törədilən hər hansı bir cinayət əməli icmaya qarşı törədilən əməl kimi qiymətləndirilirdi. Bununla belə, hətta keçmişdə belə prosesin axtarış formasının əlamətlərinin üzə çıxması halları da məlum idi. Bununla əlaqədar, icmanın cinayətkarlıqla mübarizədə mühüm rol oynaması, öz ərazisində baş vermiş cinayət hadisələrinə görə məsuliyyət daşıması, ictimai qaydanı təmin etməsi heç də təsadüfi deyildi. Ellik zəmanət qaydasında icmanın kollektiv məsuliyyət daşıması onun üzvlərini bu yönümdə fəallıq göstərməyə sövq edirdi. Baxılan dövrdə etiraf mühüm sübut növü olsa da mövcud quruluş çərçivəsində özbaşınalıq üçün əlverişli şərait yaradırdı.

**ƏDƏBİYYAT**


1. Əliyev Ə. Quldarlıq ölkələrinin dövlət və hüquq tarixi. Bakı: 1991, 207 s.
2. Хрестоматия по истории государства и права зарубежных стран. Под ред З.М.Черниловского. М.: Юр.лит., 472 с.
3. İsmayılov X. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 719 s.
4. История государства и права зарубежных стран. (Рабовладельческое и феодальное государство и право) Под ред. П.Н.Галанзы. М.: Юр.лит., 1980, 549 с.
5. История государства и права зарубежных стран. В 2-х томах. Т.1 Под ред.

Н.А.Крашенинникова. Норма. ИНФРА-М. М., 2010, 719 с.
6. Məlikova M., Nəbiyev E.. Xarici ölkələrin dövlət və hüquq tarixi (Qədim və Orta əsrlər). Bakı: Elm və həyat, 2005, 464 s.
7. Уголовный процесс. Учебник для вузов: Под ред А.С.Кобликова. М.: Норма, 2000, 373 с.
8. Всеобщая история государства и права. Т.1. Древний мир. Средние века. Под ред. В.А.Томсинова. М.: Зерцало, 2002, 625 с.

## НЕКОТОРЫЕ ВОПРОСЫ БОРЬБЫ С ПРЕСТУПНОСТЬЮ, ПРАВОСУДИЯ И СУДЕБНОГО ПРОЦЕССА В ДРЕВНИЙ ПЕРИОД

**Э.Г.НАБИЕВ**

**РЕЗЮМЕ**

В статье рассматриваются некоторые вопросы правосудия в Азербайджане и в других странах в Древний период, участия общинных органов управления (в качестве судебных) в борьбе с преступностью, а также формы судебного процесса в указанный период и ряд других вопросов.

**Ключевые слова:** правосудие, борьба с преступностью, признание, состязательный процесс, розыскной процесс, круговая порука, пытка

## SOME ISSUES OF STRUGGLE AGAINST CRIMINALITY, JUSTICE AND THE JURAL PROCESS IN THE ANCIENT PERIOD

**E.G.NABIYEV**

**SUMMARY**

The article studies some questions of justice in Azerbaijan and other countries in the Ancient period, the struggle of state organs against criminality, and the forms of the jural process in the mentioned period in line with other questions.

**Key words:** justice, the struggle against criminality, admission, adversary proceedings, investigation process, mutual responsibility, torture